# "MƏNİM HƏR KİTABIM MƏĞLUBİYYƏTİMDİR"

## İnqilab İsaqın «İndi elə təkəm ki...» kitabı barədə qısa qeydlər

**Birinci yazı**

***Səhv etmiriksə, tənhalıq - insanın emosional vəziyyəti, psixoloji kökləri olan sosial izolyasiyadır. Təklik isə digər bir insanla emosional əlaqə mövcud olmadıqda təlatüm edən fövqəladə haldır. Bu rakursu Xalq şairi Bəxtiyar Vahabzadə «Təklik» şeirində belə xarakterizə edib:***

*Xəyal gah dağdadır, gah da aranda,*
*Gah göyə yüksəlir, gah enir insan.*
*Otaqda bir saat tək oturanda,*
*Yüz ilin dərdiylə yüklənir insan...*

Bu parçadan (da) görünür ki, tək qalmış adam mütləq mənada onu başa düşən (anlayan) digər bir adama möhtacdır. Xalq yazıçısı Mirzə İbrahimovun «Böyük Dayaq» romanında ehtiva olunduğu kimi: «...Birdən Mayaya elə gəldi ki, qəriblik, təklik hiss etdiyi bu qəribə yerlərdə Qaraşdan başqa bir ümidi yoxdur...» İstedadlı şair İnqilab İsaqın 2018-ci ildə «Elm və Təhsil» mətbəəsində çap olunmuş «İndi elə təkəm ki...» kitabı da (bu sitatlara uyğun) təkliyin sosial-izolyativ (bir) hal olduğu qənaətindədir. Lakin ilham qapısı açıq olan şair (başqalarından fərqli olaraq) bu paradoksda dopdolu bir həyat eşqi tapır, oxucunun diqqətini ümid dolu atmosferlərə çəkir; ona məlum edir ki, on adam içində tək-tənha qalmaq hansı anlamdadır və nə üçün insan cəmiyyət arasında bu prosesi yaşayır. Belə deyək, İnqilab müəllim özü bu zəruri vəziyyətə (kitabda) bir sıra səbəb göstərir. Diqqət edək:

*Qapımı döyməyə çox da tələsmə,*
*Peşiman olarsan günümü görüb.*
*Mənim taleyimin bənna əlləri*
*Hörsə də, yarımçıq bir bina hörüb...*

***

*Ta yalanla inandır,*
*Doğruyla aldat məni.*
*Odu su bil, suyu od,*
*Boşluqdan çıxart məni...*

***

*Bezdim axı özgədən,*
*Özümə dönəm gərək.*
*Yad üzündə qonağam,*
*Üzümə dönəm gərək...*

***

*Yoruldu bu adam da,*
*Qaçdı məndən axırı.*
*Durum haraya gedim -*
*Kiridim bir özümü,*
*Kiridim o fağırı?!*

Əlbəttə, təklik gözləri qaranlıqla dolan adamın (bir az da) özünə qayıda bilmək "səadəti"dir. Çünki zülmətin (ən çox) qara rəngə uyğun olmasını (demək olar) hamı şərtləndirə bilər, lakin onun içində ləngər vuran işığı çox az insan görür. Bu paradoksu İnqilab İsaq adıçəkilən kitabında (daha) dolğun ehtiva edib. Diqqətlə nəzər yetirsək, görərik ki, onun şeirlərindəki qaranlıq hücrə (bütün hallarda) parlaq işıqla müşayiət olunur. Yəni, müəllifin "İndi elə təkəm ki..." deməsi oxucuda məyusluğa eniş edən hislər yaratmır, əksinə, o təşnə etirafda oxucu bir ümid çırpıntısı tapır, mübariz olmağa qərar verir.

"Qapımı döyməyə çox da tələsmə, Peşiman olarsan günümü görüb..." qənaəti ilə öz ömür anını göstərən şair (elə) sanmayın ki, Tanrıdan və taledən narazıdır; əksinə, o, bənna əlləri ilə hördüyü yarımçıq binada Mənsur Həllac ucalığı tapıb, özü ilə Allah arasındakı boşluqlardan çıxmağa müvəffəq olub, "Yoruldu bu adam da, Qaçdı məndən axırı..." ricəti ilə içindəki "Mən"in fövqünə qalxıb, onu doğru yalanlara inandırıb, bir növ, (onu) yalan doğrularla kiritməyi bacarıb. Belə bir yüksək ədəbi fəhm (yalnız) İnqilab İsaq kimi çox az sayda qələm adamına müəssərdir. Və necə ki, məzmunu olmayan fikir dayağı olmayan çəpər kimidir, eləcə də ürək sızıltısı qəlb rahatlığı yaratmayan adamda İnqilab İsaqın təklik-tənhalıq fəlsəfəsini anlamaq şansı yoxdur...

Doğrudan da, "İndi elə təkəm ki..." kitabı (kökləri Zərdüşt sevgisinə enən bir ağac olaraq) şeiri gözləri ilə oxuyanlara öz poetik budağından heç nə vermir. Müəllif kitaba elə boya sürtüb ki, orada ard-arda düzülən qəlb sızıltılarını mütləq ürəyinlə oxumalısan...

Biz buna görə İnqilab İsaqın poetik gerçəyini tam mənada idraka sığışdırır, lirik-ictimai qənaətini elə bu ədəbi xarakterə uyğunlaşdırırıq. Maraqlıdır ki, Çinar qədər uca şairin ömrünün bu yaşında realizə edə bildiyi fikirlər də birbaşa bu zərurətə əsas verir...

***

*Yerində az say biri,*
*Böyüsün qoyun biri.*
*Sirdə saxlayıb sirri*
*İşığa, günə tutun...*

***

*Bu qapı o qapının*
*Sözünü deyib durur.*
*Yüz eybini qıfılla,*
*Önündə eyib durur...*

***

*Kölgələr içində kölgəm fikirli,*
*Yenə qorxulara qaça-qaç düşüb.*
*Qəbirlər cücərdən nizə ucundan*
*Körpə bələyinə paslı xaç düşüb...*



Əbəs yerə biz (dəfələrlə) İnqilab İsaqın səmərəli ədəbi təfərrüatlarını özümüzə bələdçi etməmişik. Çünki onun öz fərdi üslubu, öz fərqli düşüncə tərzi, hadisələrə öz zəruri-tənqidçi yanaşması var. Bu mənada, biz (hətta) ən xırda detalı belə gözdən qaçırmamaq üçün kitabın işıqlı səhifələrini aramla, (həm də çox ehtiyatla) vərəqləyirik.

"İndi elə təkəm ki..." kitabını oxuduqca bu qənaətə gəlirik ki, İnqilab İsaqın (heç bir şeirdə) xəyalyaratma israrı (oxucunu labirintə salmaq marağı) yoxdur; əksinə, o, sözün bədii aspektlərini dürüst anlama çəkməklə, aldadıcı fikirləri parçalayır, axsaq təbləri ilə oxucu zövqünü korlayanlara öz yerlərini göstərir. Onun peşəkar, ədəbi-dürüst poetikasında dərin düşündürücü, bəşəri məna kəsb edən həyat eskizləri var və üzərində təhlil apardığımız bu kitabın da (elə) ədəbi-ictimai və fəlsəfi təəssüratları məxsusi olaraq bu amillə səciyyələnir...

Əlimizdə kiayət qədər sübutumuz var, deyək ki, İnqilab İsaqın poetik ruhu çox qələm adamına təsir edib...

Çoxları kimi, (bu gün) İnqilab İsaq da sosial qayğılarla cəngdədir, lakin o, bu ədəbi mübarizəni xaos yaratmaq iddiası ilə deyil, qlobal həyat səciyyləri ilə xarakterizə edir və onun bu ideyaçı ədəbi manevrələri zəif ədəbi israrları ilə vahimə yaratmaq çək-çevirində olanlara tutarlı mesajdır.

"İndi elə təkəm ki..." kitabında (belə demək mümkünsə, Adəmdən sonuncu adama qədər) bütün bəşər övladının həyatı təfsir olunub. Buradakı milli-mənəvi dəyərlərin, intizar, həsrət dolu hislərin, ləyaqət və insanpərvərlik duyğularının oxucunun sağlam düşüncəli vətəndaş kimi yetişməsində başlıca rolu var. Bunu İnqilab İsaqın öz poetik hisləri ilə isbat edək:

*Axan səmtinə axmır,*
*Söz də baxmır səmtinə.*
*İndi gərək ayrılaq,*
*Mən şeirə, sən tinə...*

Oxucunu (bəzi hallarda) bir sıra ədəbi proses ilə «ovsunlamaq» mümkündür. O, (yalnız) bu sehirdən ayılanda dərk edir ki, təsirinə düşdüyü mövzu mətnin mahiyyətinə, məna isə ədəbi tutuma (zərrə) uyğun gəlmir. Ancaq İnqilab İsaq cəmiyyət(lər)in başayaq yaşam tərzində tipik-ədəbi xətt axtarmır; o, nəfsin hakim olduğu mühitdə mənəviyyatı ikinci (bəlkə də üçüncü, dördüncü, beşinci...) dərəcəli məsələ olmaq qorxusundan azad etmək üçün öz sağlam-israrçı ideologiyasını talançı zəminlərə qarşı qoyur, nəticədə ehmal adamlarsayaq abır-həyadan qızarır, dərdini içində çəkir, yaxşı anlayır ki, nəfs fikirlə təsəvvür arasında dəqiq sərhəd qoya bilməz. Məhz yuxarıda nümunə gətirdiyimiz poetik parçalarda (da) əsas motiv bu zəruri prosesi ehtiva edir. Təkcə «Axan səmtinə axmır...» bədii təəssüratı bəs edir ki, dediklərimizin fərqinə varaq. Yaxud «Bu qapı o qapının sözünü deyib durur. Yüz eybini qıfılla, önündə eyib durur...» paradoksu dünyanın hansı xarakterdə, hansı formada olduğunu açıq-aydın göstərir. Oxucu bu fikirdən sonra hansısa fərqli hissin qoynunda pərvaz etməyə ehtiyac duymur...

Adıçəkilən kitabda çoxumuza tanış (olan) dövrə uyğun təfsilat (da) var; kitabın ədəbi vakuumunda insansızlıq fərqli bir təsir vasitəsi olduğu üçün biz (oxucu qismində) ara-sıra sarsıntıya məruz qalırıq. O mənada ki, bu təfsir təkliyə, tənhalığa lüzum verir. Məhz bu ehtiva ilə müəllif kitabı (kitabdakı hadisələri) bizimlə baş-başa qoyur, bununla (bir növ, cəmiyyətləri bir sıra məsələlərdə - qismən) suçlayır... Nəzər yetirək:

*Bu yad, doğma şəhərdə*
*Dalan-dalandı addım.*
*Gözlər elə pərdəli,*
*Gördüm, yalandı adım...*

***

*Səni darıxdırır...*
*Pusqulu şübhələr,*
*Güllə sızıltılı qorxunc boşluqlar...*

***

*Nə şəkilarxası yaddaşım var,*
*Nə sevinc sarmaşıqlı günlərim.*
*Cilovsuz at kimiyəm...*

***

*Nə sən özündəsən, nə də ki, hava,*
*İndi nə deyəsən iki dəliyə.*
*Könül havasına düşəndə adam,*
*Könül də özünə durmayır yiyə...*

Gözlərini dünyanın ağ işıqları ilə doldurub ətrafa ağ-ağ baxışlar sıçradanlar həyatı (bəzən) qarışıq, rəngsiz və boyasız görürlər. Çünki onlarda taleyin ağrı-acılarını öz qüdrətləri ilə əritmək sevdası yoxdur. Yalnız İnqilab İsaq kimi dürüst hislər burulğanında batmayan qələm adamları hətta gur axan sular kimi səmtlərini təbiətə, insana və öz ağlıqlarında olan arzulara tuş etməyi bacarırlar. Elə bu rakursda «İndi elə təkəm ki...» kitabı qlobal haraydır; pisliklərə boyun əyməyən bir adamın (müəllifin) dərdlə boyadığı «işıqlı tablo»dur. Bu «tablo»da qınaq, təlaş, sarsıntı, həyəcan və sıxıntı hədəf predmetlərdir. Bu çevrədə səmimi-nikbin notlar daha aşkardır; biz müəllifi bədbin ruhda görmürük, əksinə, o, saf əməlli obrazlarının timsalında özünü toxtaq tutur. Buna görə əmin oluruq ki, o, (hətta) ən sakit hücrələrdə də mürəkkəb aləmlərlə üz-üzədir. Bu səbəb(lər)ə də biz «Nə sən özündəsən, nə də ki, hava, İndi nə deyəsən iki dəliyə...» prizmasından yanaşır, müəllifin öz içində ikiləşən «Mən»inə bir az qibtə edir, bir az da acıyırıq. Belə deyək, təklik pafosunda özünə qısılan şair cəmiyyəti qınaq obyekti kimi göstərir, bu vacib ictimai nüansın məchulunu «Nə şəkilarxası yaddaşım var, Nə sevinc sarmaşıqlı günlərim...» poetik zərurətində axtarır.

Elə «Səni darıxdırır... Pusqulu şübhələr, Güllə sızıltılı qorxunc boşluqlar...» qənaəti də bu coğrafi ərazini əhatə edir. Bu zəmində oxucu müəllifin narahat "Mən"inə seyrçi baxışlarla nəzər yetirir, onun "təklik fəlsəfəsi"ni anlamağa çalışır.

Bu ideoloji fakta aşağıdakı misralar da əsas verir:

*Gedək yaxın-uzaq yerə,*
*Nə fərqi var, yol ki, yoldu.*
*Qəriblikdə darıxmazdım,*
*Vətən - dedim, gözüm doldu...*

***

*Yenə ürəyimin tutması tutub,*
*Qorxu böyüdürəm azan səsində.*
*Yuxulu-yuxusuz ömür tapıram*
*Dərdini işığa yozan səsində...*

***

*Məni tapşır sükuta,*
*Saxla göyqurşağında.*
*Gözü dünyada qalsın,*
*Göy kimi... uşağın da...*

***

*Bağlama bu qapını,*
*Açsan, ürək kimi aç.*
*Xəbərin var, xəbərdən, -*
*Dərya damlaya möhtac...*

***

*O qədər kədərə könül vermişik,*
*Sevinc gələndə də çaşırıq düzü...*
*Gah doymuş qaranlıq, gah da ac işıq*
*Gülüb, addımbaşı aldadır bizi...*

***

*Deyən, qocalığın havası vurur,*
*Alnımın qırışı nəsə danışır.*
*Deyən, hövsələsi daralıb sözün,*
*Hər nə danışırsa, kəsə danışır...*

***

*Günlərim islanmış köynək kimidi,*
*Onu yer qurutmaz, göyə sərirəm...*
*Ömür bağçasında görən, nə bitib?!*
*Alma dərmirəm ha, nəfəs dərimrəm...*

***

*Yadına düşürmü o aylı gecə?*
*Hələ kölgəmizi ayrılıq qovur.*
*Baharda deyəsən əldən düşmüşəm.*
*Barı, bu payızda dincəl bir hovur...*

***

*Hamı öz evində, canı sağ olsun,*
*Hər kəsin sükutu özünə haray...*

***

*Vaxt dərdin başına sığal çəkəndə,*
*Sığala yatmayan cığal adamam.*
*Özüm öz öynəmə, öz çanağıma*
*Davasız-şavasız sığan adamam...*

Bu nümunələrdəki ovqatverici hissə hakim olduqca inanırıq ki, «İndi elə təkəm ki...» kitabında şair toplum olaraq bütün bəşərdir, onun yaşadığı həyat (da) hamı üçün eyni və ya fərqlidir. O, bu kitabda əzabı çeynəmək, dadına baxmaq istəyindən uzaqdır; çünki o, dərdi aşkar şəkildə həzm edir, ona uzun ayrılıqdan sonra qovuşan iki fərd kimi məna verir. Məsələn: «Yenə ürəyimin tutması tutub, Qorxu böyüdürəm azan səsində..." qənaəti şairin dərddən keçə bilmək cürətinə parlaq misaldır. İstedadlı şair "Günlərim islanmış köynək kimidi, Onu yer qurutmaz, göyə sərirəm..." fəlsəfi ricəti ilə bu mənanı bir az da gücləndirir, əzaba qorxu hissi ilə deyil, həyata könül verə bilmək səadəti ilə nüfuz etməyi məsləhət görür. Bu ədəbi-zərrəvi hissə "Hamı öz evində, canı sağ olsun, Hər kəsin sükutu özünə haray..." lirik məğzi də isbat verir...

İnqilab müəllim kitaba çox təsirli, ovqata sərt hissi enmə edən ad seçib: «İndi elə təkəm ki...». Bu ad, ilk baxışdan vahimə, həyəcan doğurur. Biz bu təfərrüatı anlayışlı adama ehtiyacın hansı qaynarlıqda olması ilə şərtləndirir, bunu həm də müəllifin yetkin yaşda olmaq zərurəti ilə əlaqələndiririk. O, bu yaşa qədər özü kimi, öz rəngində, öz sanbalında, öz mərtəbəsində, öz paklığında... adam tapmayıb deyə fikri-zikri yalnız pis vərdişlər barədə düşünmək, sərvət toplamaq, dövlət malını talamaq olan korrupsiyaçıları sərt tənqidə tuş qoyub, bu qaçhaqaç, bu qovhaqovda həyatın ağır ləngərlərinə duruş gətirib, bu qarışıq, həm də bir-birinə əks iki təlatümün çırpıntısında neçə-neçə aciz fərdi hay-küydə batmaqdan qurtarıb.

Nəhayət, bu qısa şərhimizə son verərək hər kəsə bəlli etmək istəyirik ki, İnqilab İsaq nə üçün fenomendir; çünki nə yazdığını bilir, onun fikrində boğuq təəssüratlar axtarmaq səhrada çiçək axtarmaq kimi (bir) şeydir, o, qələmə aldığı şeirin hansı sanbal və məzmunda olduğunu yaxşı qavrayır, onun eyhamları (söz duyanlar üçün) min ilin əzabı qədər yaxıcı görünür və s.

Nə xoş ki, (bizim) İnqilab İsaq poetik düşüncələrinin doğurduğu nəticəni mühüm ədəbi fakt kimi xarakterizə etmək şansımız var!

**Qeyd:** İnqilab İsaq - "Mənim hər kitabım bir məğlubiyyətimdir", - deyir. Bu fikir əslində, özünütənqidin ən vacib, həm də ən qabarıq kateqoriyasıdır. Lakin şairin özünə qarşı bu qədər həssas olması onu (lóru dildə desək) hürkək edir. Bu, hər dəfə kitabı (yaxud, bir şeiri) çap olunanda - başqası nə deyəcək, kim hansı prizmadan yanaşacaq, - xofu başından gedənə qədər özünü üzmək prinsipidir. Şübhəsiz, iş olan yerdə nöqsan qaçılmazdır. Bu zəmində, çox istərdik ki, İnqilab İsaq bu məsuliyyətin qaynarlığına dəlicəsinə aludə olmasın. Çünki bu həssaslıq şairi (kitabdakı) bir sıra fikirlərdə yeknəsəq məqasədlərə tuş edib. Hansı şeirində zəif, yaxud yanlış nüanslar var, məhz bu təsirdən doğub...

✍ **H.Məlikzadə,**
**şair, ədəbiyyatşünas,**
**Prezident mükafatçısı**

Yeni təfəkkür.- 2022- ci il.- 23 sentyabr.- S. 4.